*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 461-466*
https://doi.org/10.59849/2224-9257.2024.1.461

**KAZIMZADƏ MƏRZİYYƏ İBRAHİM QIZI**
**Bakı Dövlət Universiteti**
**Zahid Xəlilov küç.33**
**kazimzade2001@gmail.com**

# NİZAMİ GƏNCƏVİ VƏ MÜASİRLƏRİNİN YARADICILIĞININ MÜQAYİSƏLİ TƏHLİLİ

**XÜLASƏ**

Nizami Gəncəvinin yaradıcılığında bəzən müxtəlif dünyagörüşlərin, habelə bəzi tədqiqatçıların fikrincə, ziddiyyətlərin, uyuşmayan təsirlərin olduğu iddia edilir. Bu meyil ondan irəli gəlmişdir ki, dahi mütəfəkkirin ideyaları bir bütün halında məntiqi ardıcıllıqla nəzərdən keçirilməmiş, ayrı-ayrı misraları xüsusi olaraq, bəzən də subyektiv şəkildə təhlil edilərək istənilən istiqamətə yönəldilmişdir. Nizami Gəncəvi yaradıcılığının müasirləri ilə müqayisəli öyrənilməsi onun dünyagörüşünü düzgün işıqlandırır. Dövrün bir çox alim və şairlərinin həyat və yaradıcılığına qısa nəzər yetirdikdə müxtəlif paralellər nəzərə çarpır. Nizami Gəncəvi və onun müasiri olan şair və mütəfəkkirlərin yaradıcılığını diqqətlə izləsək, bu zaman bir çox elmi nəticələr əldə etmək mümkündür. Bu həm onların bir-birilərindən təsirləndiyini göstərir, həm də dövrün aktual məsələlərinin hər bir sənət adamını düşündürdüyünün isbatıdır.

**Açar sözlər:** Nizami Gəncəvi, müqayisəli təhlil, ismaililik, Xaqani, Məhsəti, XII əsr İntibahı

Nizami Gəncəvini XII əsr Azərbaycan, daha dəqiq söyləsək, Gəncə mühiti yetirmişdir. Hər bir sənətkarın yaradıcılığının təhlilinə dünyagörüşünün formalaşdığı və təkamülünə təsir edən ictimai-siyasi, ədəbi-mədəni, ideoloji mühitin araşdırılması ilə başlanmalıdır. Yazıçı yaşayıb yaratdığı zamanın övladıdır. İntibah dövrü olaraq qiymətləndirilən Nizami əsri ümumilikdə, bütün müsəlman Şərqi ölkələrinin iqtisadi, siyasi və mənəvi həyatında çiçəklənmə və tərəqqi dövrüdür. XII əsr İntibahı poetik fəlsəfədə, xüsusilə, obrazlı təfəkkürün məhsulu olan bədii-fəlsəfi fikirdə öz təsdiqini tapmışdır. Humanist konsepsiya bu dövrdə yaranan əsərlərin başlıca məzmununa çevrilir. Nizaminin müasirləri Fələki Şirvani, Qivami Mütərrizi, Müciəddin Beyləqani, İzzəddin Şirvani, Məhsəti Gəncəvi, Xaqani Şirvani və böyük şair Nizami Gəncəvinin bədii irsi ümumdünya ictimai-fikir tarixində özünəməxsus yer tutur. İstər fəlsəfi, əxlaqi, siyasi-ictimai, istərsə də ədəbi-estetik görüşləri, bədii dühası ilə özünəqədərki Yaxın və Orta Şərqin şair və mütəfəkkirlərindən irəli getdiyinə və bir çox fikirlərində yaşadığı əsri qabaqladığına görə Nizami ilkin Şərq İntibahının ən böyük nümayəndələrindən, banilərindən hesab olunur.

Müqəddəs kitablarda bəhsi keçən peyğəmbərlərlə bağlı qissələr şübhəsiz ki, ədəbiyyatın ən önəmli qaynaqlarından biridir. Hətta deyə bilərik ki, bu qissələr eyni zamanda ümumbəşəri mövzular olduğu üçün şairlərin duyğu və düşüncələrini əhatəli

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 461-466*
https://doi.org/10.59849/2224-9257.2024.1.461

dilə gətirmək üçün bir vasitədir. Çünki, ədəbiyyatda tez-tez müraciət edilən İbrahim Peyğəmbərin oğlunu qurban etmə təşəbbüsü, Yusifin quyuda və zindanda çəkdiyi çilələr, İsa Peyğəmbərin çarmıxa çəkilməsi və s. şairlər üçün tükənməz bir mövzu qaynağı olmaqla bərabər insan övladının dünyadakı var oluşunu göstərən dini mövzulardır. Bu yolla insanlarla Yaradan arasındakı münasibəti quran peyğəmbərlər yalnızca din tarixində deyil, ədəbiyyatda da müraciət olunan obrazlardır. Bəhs etdiyimiz qissələr arasında ən çox müraciət edilən Adəm peyğəmbərlə bağlı olan rəvayətlərdir. Bunun altında yatan ən böyük səbəb isə insanın kainatın necə meydana gəldiyinə dair bitmək tükənmək bilməyən marağıdır. Ona görə də, bütün səmavi dinlərdə və müqəddəs kitablarda bu suallara cavab verilir və bütün hadisələr tək bir ismin ətrafında cəmlənir: Hz. Adəm. Müqəddəs kitablarda Adəm peyğəmbərin yaradılan ilk insan olması, ona həmsöhbət olaraq Həvvanın yaradılması, cənnətdəki yaşayışı və oradan qovularaq yer üzünə göndərilməsi əhatəli şəkildə təsvir edilir. Adəm və Həvvanın qadağanı pozmaları nəticəsində dünyaya göndərilməsi "ilk günah" anlayışının meydana çıxmasına səbəb olmuş və insanlığın əbədi bir lənətə düçar olduğu qəbul edilmişdir. Xristian təsəvvürlərində dünya bir "çiləxana"dır və insan doğuşdan günahkardır. Qurani-Kərimdə bu məsələyə bir qədər fərqli yanaşma var, belə ki, yasaqlanmış şey açıq şəkildə göstərilmir, şərhçilər isə bunun bir buğda dənəsi olduğuna həmfikirdirlər. Lakin hər iki müqəddəs kitabda ən önəmli nüans Adəmin etdiyi günahdan ötrü bağışlanıb-bağışlanmamaq məsələsidir. Çünki Quranda Adəm Peyğəmbərin bağışlandığı qeyd edilir.

XII əsrdə də ədəbi nümunələrdə Adəm Peyğəmbərlə bağlı qissələrə, rəvayətlərə tez-tez rast gəlinir. Sənətkarlar Yer üzündə baş verən fəlakətlərin, pisliklərin səbəbinin axtarışına çıxmışlar. Nizami Gəncəvi "Sirlər Xəzinəsi" poemasının birinci söhbətində Adəmin yaradılmasından söz açır. İlk olaraq, hələ günaha bulaşmayan Adəm peyğəmbərin Həvva ilə birgə cənnətdə dolaşmasını təsvir edən şair onun "xoşbəxt yoxluqdan" buraya gəldiyini vurğulayır. Şair Adəmi "pərilərin sonuncu övladı" olaraq təqdim edir ki, bu da Qurandan götürülmüş bir fikirdir. Adəm peyğəmbərlə bağlı dövrün digər mütəfəkkirləri, o cümlədən, Şihabəddin Sührəvərdi, Xaqani Şirvani də yazmışlar. Şihabəddin Sührəvərdinin bədii üslubuna, dolğun məzmununa, ictimai-əxlaqi fikirlərlə zənginliyinə görə seçilən "Risalə fi həqiqətül-eşq ya munisül-üşşaq" əsərində də Adəm peyğəmbərlə bağlı qissəyə yer verilmişdir. "Həqiqətül-eşq" əsəri formaca "Sirlər Xəzinəsi" əsəri ilə səsləşir. Sührəvərdi əsərində Adəmin yaranmasından, onun təbiətindən və taleyindən söz açır. Sührəvərdi əsərində Adəm-İnsanın yer üzündə dörd ünsürdən yarandığını təqdim edir. Həmin fikir Xaqanidə də təkrarlanır, o, Adəm kəliməsinin ərəb əlifbasında yazılışını insanın namaz qıldığı zaman duruşuna bənzədir və Adəmin 40 gündə dörd ünsürlə – su, torpaq, od və hava ilə yaradıldığını vurğulayır:

*Adəm vücudunun "əlif"i, "dal"ı, "mim"idir,*
*Qırx gündə dörd əsillə yaranmış həkimidir* [4, s. 377]

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 461-466*
https://doi.org/10.59849/2224-9257.2024.1.461
Nizami Adəmi "göydə yaşayanların ən gözəli, ən xası" olaraq göstərir. Sührəvərdi isə vurğulayır ki, göylərdən mələklər Adəmin hüsnünə baxmağa gəlmiş, onun gözəlliyinə heyran olmuş və ona baş əymişlər. Nizami mələkləri "cənnət quşları" olaraq təqdim edir və mələklərin Adəmə baş əyməsinin, minnətdarlığının səbəbini də göstərir. Allah Adəmə bütün adları öyrətmiş, Adəm də Tanrıdan öyrəndiklərini mələklərə öyrətmişdir. Lakin təkcə bir "divanə", yəni İblis səcdə qılmır. İblisin toruna düşən Adəm cənnətdən qovulur. Nizami də, Xaqani də "qadağan olunmuş meyvəni" buğda olaraq təqdim edirlər:

*Tamah saldı kərəmin bəxş etdiyi danəyə*
*Atdı ev-eşiyini, cənnətə vida deyə* [11, s. 88]

yazan Nizami "buğda yemək günahının bir arpaya dəymədiyini" söyləyir. Lakin insan oğluna səslənən şair atamız Adəmin insansız gülmədiyini, cənnətdə insansız rahatlıq tapmadığını, Yer üzünün insanı görməsi üçün dərd çəkdiyini yazaraq hadisəyə maraqlı bir poetik don geydirmişdir. Şair buğdanı yersiz ehtirasların, nəfsin simvolu kimi təqdim edir. Buğda insanları cəzalandırmaq, udmaq məqsədilə ağzını açmışdır. Nəfsini cilovlamağı bacarmayanlara səslənir:

*Öz arpa çörəyini qənaətlə ye ki, sən*
*Adəm düşən buğdanın toruna düşməyəsən* [11, s. 90]

Xaqani də "bir parça çörəyin" ucbatından yurdundan ayrı düşdüyünü, şahların verdiyi çörəyin qarşısında min cəfa çəkdiyini söyləyir. Buğdanın, çörəyin timsalında dünyəvi ehtirası, nəfsi lənətləyir:

*Cənnətdən ayrı saldısa bir buğda Adəmi,*
*Əzmü iradədən məni qıldı cüda çörək.*
*Adəm behişti tərk elədi, mənsə yurdumu,*
*Buğda ona qənim, mənə də sən bəla, çörək!*
*Ya rəb, mənimlə Adəmin al intiqamını,*
*Məhv eylə buğdanı, çalış alsın cəza çörək.* [4, s.294]

XII əsrin ən böyük söz ustadlarından hesab olunan Xaqani Şirvani və Nizami Gəncəvinin yaradıcılığında müştərək məqamlar bununla bitmir. Həm Xaqani, həm də Nizami Azərbaycanın zəngin xalq yaradıcılığından bəhrələnmiş, əsərlərində xeyli folklor nümunələrinə yer vermişlər. Əsərləri diqqətlə nəzərdən keçirildikdə şifahi xalq ədəbiyyatından kifayət qədər təsirləndiklərini görmək olar. Xaqani Şirvaninin "Quşların söhbəti" qəsidəsində alleqorik Simurq obrazı ədalətin rəmzi kimi qələmə alınmışdır [4, s. 158]. Nizamiyə görə də, ədalət Simurq quşunun qanadları altındadır. "Ədaləti bu zamanədə almışlar, ona Simurq quşunun qanadında vətən vermişlər" [10, s.111]. Nizami "İsinmədim istisinə, kor oldum tüstüsünə" məsəlinə müraciət edərək "Ey ürək nurlandıran, sənin oduna isinmədim, tüstündən isə gecə-gündüz kor oldum" deyərək Şirinin dilindən səsləndirirsə, Xaqani mərsiyələrinin birində yazır: "Dövlət odundan gecə ulduzlardan olduğu kimi istilik görmədim, çoxlu tüstü gördüm". Xaqani burada saraylardan incikliyini diqqətə çatdırır. "Aslanın erkəyi, dişisi olmaz"

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 461-466*
https://doi.org/10.59849/2224-9257.2024.1.461
məsəli də hər iki şairin yaradıcılığında yer almışdır. Xaqani “ Padşahlıq zamanı şahın nə qadını, nə kişisi. Döyüşdə aslanın erkəyi, dişisi olmaz” fikrilə çıxış edirsə, Nizami bu düşüncəni “İskəndərnamə”də Nüşabənin dililə təqdim edir. N.Araslı yazır ki, “Nizami xalq ədəbiyyatına daha yaxın olmuş, o, yaradıcılığının ümumi mündəricə, ideya və mənası, təkrarsız sənətkar təbiətinə uyğun olan bu tükənməz xəzinədən daha rəngarəng tərzdə faydalanmışdır. Lakin bu zaman şairin deyim tərzində fərdilik o qədər qüvvətli olmuşdur ki, bu təsiri tapıb üzə çıxarmaq xüsusi zəhmət tələb edir” [1, s.14].

XII əsr mütəfəkkirlərinin yaradıcılıqlarında başqa bir ortaq nüans da diqqətimizi çəkir ki, bu da onların Şərqdə ilk terror təşkilatı hesab edilən ismaililərə qarşı mənfi münasibətləridir. Azərbaycan ədəbiyyatında ismaililiyə qarşı öz münasibətini ilk dəfə Xaqani Şirvani və Əbülüla Gəncəvi qələmə almışdır. Nizami Gəncəvinin yaradıcılığında da ismaililiyə münasibətini görmək mümkündür. Bəzən Şirvanşahlar sarayında şairləri siyasi qətllər törədən, terror bayrağı daşıyan ismaililərlə əlaqədə günahlandırırdılar. Xaqani əsərlərində Əbülüla Gəncəvinin ismaililiyə rəğbəti olduğunu yazmışdır. Biz onun yaradıcılığından Azərbaycanda ismaililiyə münasibətin, məzdəkilik və maniliyə necə yanaşıldığını görə bilərik. Səbbahilik isə ismaililiyin ayrıca bir qolu olub Səlcuqlulara qarşı çıxan fars zadəganlarının terrorçu bir hərəkatıdır. Qeyd edək ki, Səlcuqlu vəziri Nizamülmülkün və Məlikşahın qətli də səbbahilərlə əlaqələndirilir. “Töhfətül-İraqeyn” əsərində Əbülülanın ismaililərə rəğbətindən bəhs edən şair özünün digər əsərlərində də ismaililiyə qarşı mövqeyini bəlli etmişdir:

*Bir ovucdur onlar – İsmayililər* [4, s.338]

Başqa bir beytində isə yazır:

*Misrə nöqtə qoysan, tez müzürr olar.* [4, s.73]

Bu beyt Xaqaninin ismaililərə olan mövqeyini daha aydın şəkildə göstərir. Belə ki, ərəb əlifbası ilə yazılmış Misir sözünün üzərinə nöqtə qoyduqda “müzürr”, yəni zərərli, ziyanlı şəklində oxunur. Xaqani Misirin xilqətində bir müzürlük olduğuna işarə edir. Bu da İsmaililər firqəsi ilə bağlıdır. Belə ki, XII əsrdə ismaililər daha çox Misirdə fəaliyyət göstərirdilər. Buna görə də Xaqani İslam dininin bəzi ehkamlarına qarşı olan ismaililəri və onların qərar tutduğu Misiri pisləyirdi. Nizaminin də ismaililərə qarşı fikri “Leyli və Məcnun” əsərində bu beytlərdə öz əksini tapmışdır:

*Mən İsmayıl kimi saxlaram ədəb,*
*İncisəm, qoy olum İsmayılməzhəb* [9, s.134]

Bəzi tədqiqatçılar məhz bu beytlərdən yola çıxaraq Nizaminin farslıqdan uzaq olduğunu isbat etməyə çalışmışlar. Çünki Səbbahilik qədim farslığın xilafətə qarşı şiddətli mübarizəsi idi. Nizaminin məmduhu Qızıl Arslanın da səbbahilər tərəfindən öldürüldüyü rəvayət edilir. Beləliklə, Ərəb xilafətinə və türk sultanına düşmən mövqedə dayanan bir birlik Nizaminin də nifrətini qazanmışdır. Lakin Z.Quluzadə Nizami yaradıcılığına fərqli aspektdən yanaşır və “Şərq mədəniyyəti tarixinin nəzəri

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2024*
*Səh. 461-466*
https://doi.org/10.59849/2224-9257.2024.1.461
problemləri və nizamişünaslıq" kitabında "Sirlər xəzinəsi" əsərinə sufizmlə yanaşı, ismailizm fəlsəfəsinin təsiri olduğunu iddia edir. İsmaililər haqqında xeyirxahlıqla yazmaq qeyri-mümkün olduğu üçün Nizaminin ismaililərə rəğbətini açıq-aşkar göstərmədiyini iddia edir. Buna cavab olaraq, Z.Məmmədov yazır: "Nizamidə şiəliyin bir qolu olan ismailizm təsiri də yoxdur. Sırf ismaililiyə xas əqidələr onun dünyagörüşünə yaddır. Nizaminin kosmoloji baxışları ismaililərin deyil, Şərq peripatetiklərinin təliminə uyğundur. İsmaililər Allahın bəzi atributlarını inkar edirdilər. Bütün bunlara görə, Nizami ismaililərə rəğbət bəsləyə bilməzdi" [5, s.29].

Beləliklə, XII əsrin bədii-fəlsəfi fikir tarixində öz təsdiqini tapan İntibah dövrünün və Nizami Gəncəvinin yaradıcılığının məntiqi ardıcıllıqla öyrənilməsinə onun müasirləri ilə ideya-mövzu yaxınlığına diqqət yetirərək başlamaq lazımdır. Nəticədə məlum olur ki, Nizamin yaradıcılığındakı müxtəlif meyillər müasirlərinin də həyat və cəmiyyətlə bağlı mühakimələri ilə sıx əlaqə nəticəsində meydana gəlmişdir. Nizami və müasirlərinin yaradıcılığında yer alan eyni mənalar onu göstərir ki, Nizami bu sahədə də məharətini nümayiş etdirmiş, təkrara yol verməmiş, nəticə etibarilə də öz beytlərinə fərdilik qazandırmış, özünəməxsusluq vermişdir. Bəzi məqamlarda müştərəklik İslam dünyagörüşündən irəli gəlsə də, bir çox hallarda milli düşüncəsindən, Azərbaycan xalqına məxsus əsatir və folklordan irəli gəlir.

## Ədəbiyyat:

1.Araslı N. Nizaminin poetikası (ədəbi qaynaqlar və bədii təsvir vasitələri), Bakı, "Elm", 2004, 454 səh.
2.Həbibbəyli İ., İbrahimov S. Orta əsrlər Vahid Şərq ədəbi prosesi I cild. Bakı, "Ləman Nəşriyyat Poliqrafiya", 2018, 474 səh.
3.Hüseynov R. Məhsəti necə varsa. Bakı, "Yazıçı" , 1989, 336 səh.
4.Xaqani Şirvani. Seçilmiş əsərləri. Bakı, "Lider nəşriyyat" , 2004, 672 səh.
5.Məmmədov Z. C. Nizaminin fəlsəfi düşüncələri. Bakı, "Elm", 2000, 84 səh.
6.Nizami Gəncəvi. Xosrov və Şirin. Filoloji tərcümə. Bakı, "Elm", 1981.
7.Nizami Gəncəvi. İskəndərnamə. Filoloji tərcümə. Bakı, "Elm", 1983
8.Nizami Gəncəvi. İskəndərnamə. İqbalnamə. Bakı, "Lider nəşriyyat", 2004, 256 səh.
9.Nizami Gəncəvi. Leyli və Məcnun. Bakı, "Lider nəşriyyat", 2004, 288 səh.
10. Nizami Gəncəvi. Sirlər xəzinəsi. B., "Yazıçı", 1981, 194 səh.
11. Nizami Gəncəvi. Sirlər xəzinəsi. Bakı, "Lider nəşriyyat", 2004, 264səh.
12. Nizami Gəncəvi. Yeddi gözəl. Bakı, "Lider nəşriyyat" , 2004, 336 səh.

**Kazimzade M.İ**

## Comparative analysis of works of Nizami Ganjavi and his contemporaries

## Summary

The writer is a child of the era in which he lives and writes. Nizami Ganjavi was brought up by the Azerbaijani literary environment of 12th century. This period was evaluated as the Renaissance period, and the humanistic concept became the main content of the works created in this period. Nizami is considered one of the greatest representatives and founders of the early Eastern Renaissance. It is said that there are sometimes the influence of different views and contradictions in Nizami Ganjavi's work. Because the works of the genius poet was not reviewed in a logical sequence as a whole. Various interests in Nizami's works were formed as a result of close contact with the judgments of his contemporaries about life and society. The common points are sometimes derived from the Islamic worldview, and in many cases from the national thought of the Azerbaijani people.

**Key words:** Nizami Ganjavi, comparative analysis, ismailism, Khagani, Mahsati

**Казимзаде М. И.**

**Сравнительный анализ творчества Низами Гянджеви и его современников**

**Резюме**

Писатель – дитя эпохи, в которой он живет и пишет. Низами Гянджеви был воспитан в азербайджанской литературной среде XII века. Этот период оценивался как период Возрождения, и гуманистическая концепция стала основным содержанием произведений, созданных в этот период. Низами считается одним из величайших представителей и основоположников раннего Восточного Возрождения. Говорят, что в творчестве Низами Гянджеви иногда наблюдаются влияние различных взглядов и противоречий. Потому что произведения гениального поэта не рассматривались в логической последовательности в целом. Разнообразные интересы в творчестве Низами сформировались в результате тесного соприкосновения с суждениями его современников о жизни и обществе. Низами во всех своих произведениях демонстрировал свое мастерство, не допускал повторов и придавал индивидуальность каждому стиху. Общие точки зрения иногда вытекают из исламского мировоззрения, а во многих случаях из национальной мысли азербайджанского народа.

**Ключевые слова:** Низами Гянджеви, сравнительный анализ, исмаилизм, Хагани, Мехсети

**Rəyçi: Filologiya elmləri doktoru, prof. S.M.İbrahimov**